# ÖLKƏMİZİ TANIYAQ

***Artıq altıncı ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq” devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.***

***Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.***

***Ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 11 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 26 mindən çox məktəbli iştirak edib.***

## “Ölkəmizi tanıyaq” tur-aksiyasının iştirakçıları Qəbələdə

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, martın 15-dən



respublikamızın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün nəzərdə tutulan “Ölkəmizi tanıyaq” adlı növbəti maarifləndirici tur-aksiyaya start verilib.

Tur-aksiyada iştirak edən Gəncə, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər, Xocalı, Tərtər və Gədəbəy məktəblilərindən ibarət 9 qrupun üzvləri martın 15-də, günorta saatlarında Qəbələyə gəliblər. Şagirdləri Qəbələ şəhərindəki “Qafqaz Karvansaray” və “Qafqaz Sport” otellərinin qarşısında rayon icra hakimiyyətinin və təhsil şöbəsinin nümayəndələri qarşılayıblar.

Rayonumuza gələn şagirdlər və onlara rəhbərlik edən müəllimlər həmin otellərdə yerləşiblər. Onlar nahar etdikdən sonra Qəbələ ilə tanış olublar.

Proqrama uyğun olaraq əvvəlcə şəhərin Zərifə Əliyeva küçəsində “Ölkəmizi tanıyaq” devizi altında ağacəkmə aksiyası keçirilib.

Qəbələyə səfərlərinin ilk günü məktəblilər Yengicə kəndindəki zooparka ekskursiya edib. Onlara burada saxlanılan heyvanlar barədə məlumat verilib.

Sonra şagirdlər Nohur gölünün ətrafında gəzintiyə çıxıb, xatirə şəkilləri çəkdiriblər.

Tur-aksiya iştirakçıları növbəti gün Şəki və Zaqatalanın tarixi yerləri, turizm obyektləri və istehsal müəssisələri ilə tanış olublar.

**"Qəbələ"**
**Səfa Aslanov (foto).**

## Qəbələ ilə tanışlıq şagirdlərdə böyük maraq oyadıb

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində respublikamızın şimal-qərb bölgəsinə səyahətə çıxan Gəncə şəhərinin, Gədəbəy, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər, Xocalı və Tərtər rayonlarının məktəbliləri martın 17-də Qəbələ rayonunun müasir istehsal müəssisələri, tarixi məkanları, turizm və istirahət mərkəzləri ilə tanış olublar.

Tur-aksiya iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzində olub, ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Heydər Əliyev Konqres Mər-




kəzi ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, binanın birinci mərtəbəsində zallar, 350 yerlik restoran və inzibati otaqlar, ikinci mərtəbəsində isə 1200 yerlik çoxfunksiyalı konfrans zalı yerləşir. Bu zal kresloların aşağı enməsi ilə müstəvi halına keçə bilir.

Qəbələ sənaye şəhərciyində olan məktəblilərə məlumat verilib ki, burada fəaliyyət göstərən emal müəssisələrində yarımfabrikat ərzaq məhsulları və sərinləşdirici içgilər istehsal olunur.

Məktəblilərin Qəbələ ilə tanışlığının növbəti ünvanı “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksi olub.

Bölgənin ən çox turist qəbul edən bu obyektində onlara məlumat verilib ki, hazırda burada 4 kanat xətti və 10 xizək yolu fəaliyyət göstərir. Kompleksdə turistlərin istirahətinin mənalı təşkili üçün hər cür şəraiti olan restoranlar və beşulduzlu “Tufandağ” oteli açılıb, dağ-xizək trası süni qaryağdıran generasiya sistemi ilə təchiz edilib. Gün ərzində kompleks 3 min nəfərə xidmət göstərə bilir. Dörd kanat xəttinin ümumi uzunluğu 6 kilometr, 10 xizək yolunun uzunluğu isə 17 kilometrdir.

“Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksi son illər ölkəmiz üçün yeni idman növü olan xizəkçiliyin gənclər arasında yayılmasına səbəb olub. Kompleksin xizəkçilik mərkəzi həm turizmin inkişafı, həm də yeni dağ idman növlərinin geniş yayılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu məlumatları maraqla dinləyən məktəblilər kanat yolu ilə uca dağların zirvəsinə qalxaraq oradan Qəbələ şəhərini və ətrafdakı çayları, meşələri, gözəl mənzərəni seyr edib, xatirə şəkli çəkdiriblər.

“Qəbələnd” İstirahət və Əyləncə Mərkəzinə ekskursiya da məktəblilərin ürəyincə olub.

Tur-aksiya iştirakçıları günün ikinci yarısında Nic qəsəbəsindəki “Çotari” alban-udi kilsəsində olublar. Məlumat verilib ki, kilsə qədim abidələrdən biridir. Tolerantlığın kiçik modeli hesab edilən Nic qəsəbəsində üç kilsə və iki məscid var. Altı min əhalisi olan qəsəbədə dörd mindən çox udi yaşayır. Onlar öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar. Qəsəbədəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur.

Məktəblilərin Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna ekskursiyaları da maraqlı keçib.

**“Qəbələ”**
**Səfa Aslanov (foto).**

## Məktəblilərin Qəbələyə ekskursiyası başa çatıb

Prezident İlham Əliyevin tövsiyəsinə əsasən, “Ölkəmizi tanıyaq” devizi altında keçirilən maarifləndirici tur-aksiyaların bu il Novruz bay-



ramı ərəfəsində gerçəkləşən ilk mərhələsi uğurla başa çatıb.

Layihə çərçivəsində martın 15-də Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya başlayan Gəncə şəhərinin, Gədəbəy, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər, Xocalı və Tərtər rayonlarının məktəblilərindən ibarət qruplar martın 18-də ekskursiyalarını başa vuraraq Qəbələ şəhərindən yaşadıqları rayonlara yola düşüblər.

Qəbələ şəhərindəki “Karvansaray” və “Qafqaz Sport” otellərində qalan 320 məktəbli və onları müşayiət edən şəxslər ekskursiya müddətində Qəbələ rayonunun görməli yerlərilə, muzeyləri ilə və tarix mədəniyyət abidələri ilə yaxından tanış olublar.

Məktəblilərə məlumat verilib ki, ölkənin turizm sahəsində böyük əhəmiyyətə malik olan Qəbələ həm də multikultural ənənələri və tarixi məkanları ilə bütün dünyada tanınır.

Ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış olan tur-aksiya iştirakçılarında Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə əyani təsəvvür yaranıb.

**“Qəbələ”**
**Səfa Aslanov (foto).**

## Qəbələdə “Nə? Harada? Nə vaxt?” intellektual oyunu təşkil olunub

Martın 17-də axşam Heydər Əliyev Konqres Mərkəzində keçirilən “Nə?



Harada? Nə vaxt?” intellektual oyununda tur-aksiya iştirakçıları növbəti dəfə bilik və bacarıqlarını nümayiş etdiriblər. Yarışın yekun nəticələrinə əsasən, Gəncə, Samux və Şəmkir məktəblilərinin təmsil olunduğu komandalar müvafiq olaraq ilk üç yeri tutublar. Qaliblər kubok, medal və sertifikatlarla mükafatlandırılıblar.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**